*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 204-208* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2023.1.204*

# AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu rəqəmsal mühitdə: elektron kataloq və elektron kitabxana quruculuğu

**Səkinə İsmayılova**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: s.asgerli06@gmail.com

**Annotasiya**. Milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə çatdırılmasında, onların beynəlxalq aləmə təqdim edilməsində elektron kitabxanaların rolu böyükdür. Hazırda mühüm vəzifələrdən biri ölkəmizin böyük kitabxanalarında elektron kataloqun müasir standartlar səviyyəsinə qurulmasıdır. Ona görə də kitabxanaların avtomatlaşdırılmasında elektron kataloq böyük əhəmiyyətə malikdir.
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda türk, ərəb, fars və qərbdilli daşbasma və əski çap kitablarının elektron kataloqu mühafizə olunur. Bura əlyazmaşünaslıq tədqiqatlarının kataloqu da daxildir. Hazırda İnstitutda saxlanılan əlyazmaların elektron kitabxanası və kataloqu yaradılıb, institutun redaksiya-nəşriyyat fəaliyyəti elmmetrik təhlil edilir, alimlərin əsərləri bibliometrik tədqiq olunur.
**Açar sözlər:** AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, rəqəmsal mühit, elektron kataloq, elektron kitabxana

**Məqalə tarixçəsi:** göndərilib – 19.03.2023; qəbul edilib – 02.04.2023

# Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS in the digital environment: electronic catalog and electronic library building

**Sakina Ismayilova**
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: s.asgerli06@gmail.com

**Abstract.** The role of electronic libraries is important in conveying our national and moral values to the future generations and presenting them to the international world. Currently, one of the significant tasks is to build the electronic catalog in the big libraries of our country in the level of modern standards. Therefore, the electronic catalog is of great importance in the automation of libraries.
Electronic catalog of lithographs and old print books in Turkish, Arabic, Persian and Western languages is preserved in the fund of ANAS Institute of Manuscripts named after Muhammad Fuzuli. It also includes a catalog of manuscript studies. Currently, an electronic library and catalog of manuscripts has been created at the Institute, the editorial and publishing activity of the Institute is analyzed scientifically, and the works of scientists are studied bibliometrically.
**Keywords:** ANAS Institute of Manuscripts named after Muhammad Fuzuli, digital environment, electronic catalog, electronic library

**Article history:** received – 19.03.2023; accepted − 02.04.2023

## Giriş / *Introduction*

Müstəqilliyimizin ötən 20 ili ərzində digər sahələrdə olduğu kimi, bu sahədə də inkişaf özünü müəyyən formada göstərir. Kitabxanaların elektron formasına keçməsi də məhz inkişaf göstəricilərindən biridir. Bu gün internetin xidmət şəbəkələrinin genişliyi təkcə iqtisadi deyil, mədəni sahənin də elektronlaşdırılmasını zəruri etmişdir. Kitabxanaların elektron sistemə keçməsinin isə mahiyyəti tamamilə fərqlidir. Deməliyik ki, milli-mənəvi dəyərlərimizin təkcə qorunub gələcək nəsillərə çatdırılmasında deyil, eyni zamanda onların beynəlxalq aləmə qısa vaxt ərzində təqdim edilməsində də elektron kitabxanaların böyük rolu vardır.

## Əsas hissə / *Main Part*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 aprel 2007-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" və "Azərbaycanda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı", yuxarıda qeyd etdiyimiz kimi, mühüm tədbirlərin həyata keçirilməsi məqsədilə atılmış addımlardan biridir [1]. Həmin sərəncama əsasən, Azərbaycan kitabxanaları ən yaxın zamanda tam modernləşdirilməli, yeni texnoloji avadanlıqlarla təmin edilməli, elektron kataloq və elektron kitabxana quruculuğu işləri sürətləndirilməlidir. Azərbaycanda bir çox iri kitabxanalar artıq 10 ilə yaxındır ki, modernləşməyə hazırlıq dövrünü yaşayır, elektron kataloq sistemini qurur, elektron kitabxana üçün baza formalaşdırır [2, 280 s.; 3, 372 s.].

Lakin yaxın gələcəkdə kitabxanalarımızda elektronlaşma proseslərinin daha mütərəqqi istiqamətlərini müəyyənləşdirmək üçün bir sıra yeniliklərə ehtiyac duyulur [4, s.60].

Bu gün ən mühüm vəzifələrdən biri də ölkənin böyük kitabxanalarının elektron kataloqunun müasir standartlar səviyyəsində qurulmasıdır. Çünki bu onların dünya informasiya məkanına daxil olmasında mühüm vasitədir. Məhz elektron kataloq kitabxananın informasiya resurslarının sürətli və keyfiyyətli fəaliyyətini təmin edir. Ona görə də kitabxanaların avtomatlaşdırılmasında elektron kataloq böyük əhəmiyyət daşıyır.

Bu baxımdan Naxçıvan Dövlət Universitetinin dosenti Məsmə Cəfərovanın "Elektron kataloqun yaradılması metodları və vasitələri" məqaləsi tezislər sırası ilə zəngindir. Müəllif göstərmişdir ki, elektron kitabxanalar, elektron kataloqlar vasitəsilə hər hansı elmi müəssisə öz informasiya resurslarını dünya oxucularına təqdim edə bilər. "Elektron kataloq real oxucu sorğularının öyrənilməsini, bunun əsasında kitabxanaların daha effektiv komplektləşdirilməsini təmin edir. Elektron kataloq özündə həm biblioqrafik, həm də elektron sənəd informasiyasını daşıdığından, kitabxanaçıların köməyi olmadan həm informasiya axtarışına, həm də axtarılan sənədin elektron formada tam mətninin əldə olunmasına imkan yaradır" [5, s.125].

Elektron kataloqların yaradılmasının ilk nümunələri XX əsrin 60-cı illərinə aid olub, Amerika Birləşmiş Ştatlarında başlanmışdır. Hazırda elektron kataloqun yaradılması metodologiyası təkmilləşdirilmiş, onun forma və məzmununun əsaslı modifikasiyası baş vermişdir [6, s.125-127].

*Manuscript.az* saytının resurslar bölməsində xüsusi elektron kataloq pəncərəsi vardır ki, oxucuya lazım olan kataloqlar verilib və oxucu burada axtarış aparmaqla istədiyi informasiyanı əldə edə bilər. Burada Elektron kitabxanadakı türkdilli əlyazmaların kataloqu, Elektron kitabxanadakı ərəbdilli əlyazmaların kataloqu, Elektron kitabxanadakı farsdilli əlyazmaların kataloqu, Akad. Teymur Kərimlinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan şəxsi kitabxanasının kataloqu, AMEA Əlyazmalar İnstitutunda mühafizə edilən Multidistiplinar əlyazmaların siyahısı, Əski çap kitabları kataloqu, Tahirə Nurəliyevanın Vəqf olunmuş əlyazmalar katoloqu, Tahirə Nurəliyevanın Əlyazma kolleksiyaları katoloqu, Türk əlyazmaları kataloqu özünə yer almışdır [7, 250 s.; 8, s.43-44].

Onların məqsəd və vəzifələri biblioqrafik yazı və təsvirlərin elektronlaşdırılması, bütün dövrlərdə oxucu-fond münasibətlərinin inkişaf etdirilməsi, birincinin ikincidən daha sürətli, zaman və məkanca fərqli istifadəsini təmin etməkdən ibarətdir [9, s.126].

Müəllif yazır: "Bu gün inkişaf etmiş dünya ölkələrində elektron kataloqların ən yeni formada realizə imkanları və gələcək perspektivləri əsaslı şəkildə təhlil edilir, lazımi nəticələrin alınması üçün prosesə yüksəkixtisaslı kadrları modern texnika və texnoloji vasitələr, külli miqdarda vəsait cəlb olunur" [9, s.126].

Kitabxanalarda elektron kataloqların yaradılması bibliometriya, bibliomininq və s. kimi elmi problemlərin həlli, elektron kitabxana resurslarının menecmentinin təşkili, xidmətlərdən istifadə üçün elektron kreditlərin *(tələbə və aspirantlara)* verilməsi, qarşılıqlı elektron kitab mübadiləsi kimi mühüm məsələlərin həllində təkcə vasitəçi deyil, əslində, əsas amillərdəndir.

Mütəxəssislərin fikrincə, informasiya quruculuğu proseslərinin sürətlə inkişaf etdiyi dövrdə elektron kitabxanaların xidməti daha önəmli xarakter daşıyır. Vətəndaşların informasiya tələbatının ödənilməsində elektron kitabxanaların imkanlarından yararlanan abunəçilərin sayı getdikcə artmaqdadır.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elektron Məlumat Bazası 2 massivdən ibarətdir. Birinci massiv İnstitutun fondunda mühafizə olunan türk, ərəb, fars və qərbdilli daşbasma və əski çap kitablarının elektron kataloqudur. Hazırda kataloqda 4427 təsvir mövcuddur. İkinci massiv özü də 2 hissədən ibarətdir. Buraya elmmetrik baza və əlyazmaşünaslıq tədqiqatlarının kataloqu daxildir. Bu massiv əməkdaşların elmi tədqiqat və nəşr fəallığının icmal elmmetrik mənzərəsini (1950-2021-ci illər üzrə) təqdim etmək, onların İnstitutda işlədikləri dövrdə nəşr olunmuş əsərləri haqqında biblioqrafik məlumat vermək məqsədilə yaradılmışdır [10, s.32]. İndi bu massivdə 7230 əsərin ümumiləşdirilmiş elmmetrik məlumatı və biblioqrafik təsviri mövcuddur.

Əlyazmalar İnstitutunun da elektron kataloq və elektron kitabxana quruculuğu diqqəti cəlb edir. İnstitutun elektron kataloqu ilə yaxından tanış olmaq üçün *manuscript.az* saytına müraciət etmək lazımdır [11].

Hazırda İnstitutda saxlanılan əlyazmaların elektron kitabxanası və kataloqu yaradılır, institutun redaksiya-nəşriyyat fəaliyyəti elmmetrik təhlil edilir, alimlərin əsərləri bibliometrik tədqiq olunur. Bu gün İnstitutun Elektron kitabxanasının bazasında 4500-ə qədər əlyazmanın rəqəmsal variantı saxlanılır. İnstitutun elektron kataloquna 12259 əlyazma və nadir əski çap kitabının təsviri daxil edilmişdir.

Son beş ildə İnstitutun alimləri tərəfindən 168 kitab, 800-ə yaxın məqalə və tezis, o cümlədən 200-ə yaxın məqalə və tezis xaricdə (10 məqalə impakt faktorlu jurnallarda) çap olunmuşdur. Elmi işçilərin əsərlərinə 86 istinad edilmişdir. İnstitut tərəfindən 5-i beynəlxalq olmaqla 11 elmi tədbir keçirilmişdir. 4 problemin 13 mövzusu üzrə 62 elmi tədqiqat işi aparılmışdır. 14 mühüm elmi nəticə alınmış, 2 iş isə tətbiq olunmuşdur. Son illərdə "Nadir şah Əfşar: diplomatik yazışmalar" (2015); "Azərbaycan multidissiplinar əlyazması: xəzinədən incilər", Azərbaycan və ingilis dillərində (2017); "Əlyazmalar İnstitutundakı türkdilli əlyazmaların toplu kataloqu", 4 cilddə (2018); "Əlyazmalar İnstitutunda saxlanan tibbə dair əlyazmalar kataloqu" (2018); "Ərəbdilli əlyazmalar kataloqu", 4 cilddə (2019); "İlahiyyata dair əlyazmalar kataloqu", 3 cilddə (2019); "Çağdaşımız Nəsimi" monoqrafiyası (2019); "Bilinməyən Nəsimi" qeyri-mətbu şeirlər toplusu (2019); "Nadir şah Əfşarın Azərbaycanın xristian əhalisi ilə münasibətlərinə dair farsdilli sənədlər (erməni icmasının timsalında)" (2020) və s. kitablar nəşr olunmuşdur [11].

Əldə olunan ən mühüm nailiyyətlərə akademik Teymur Kərimlinin layihə rəhbəri olduğu elmin müxtəlif sahələrini əhatə edən 150-yə yaxın mühüm əlyazmanın paleoqrafik təsvirini özündə cəmləyən "Azərbaycan multidissiplinar əlyazması: xəzinədən incilər" kimi mükəmməl elmi araşdırmanı nümunə göstərmək olar. 2017-ci ildə Azərbaycan və ingilis dillərində nəfis şəkildə çap olunan bu kitab geniş elmi ictimaiyyətin əlyazma irsimizlə tanışlığı üçün imkanlar açır.

İnstitutun çap məhsullarına 2015-ci ildən start verilmiş, hazırda Azərbaycan və ingilis dilində çıxan "Əlyazmalar yanmır" və "Elmi əsərlər" jurnalları Google Scholar və Semantic Scholar, İndex Copernicus kimi nüfuzlu beynəlxalq indeksləşdirmə bazalarında indeksləşdirilmişdir.

## Nəticə / *Conclusion*

Son dövrlərdə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xarici ölkə kitabxanaları ilə əlaqələri genişlənmiş, surətlərini əldə etdiyimiz yazılı abidələrimizin sayı artmışdır. Əlbəttə ki, bunun əsas səbəbi Azərbaycanın müstəqilliyinə qovuşmasıdır. Artıq sovet dövründə olduğu kimi, bir əlyazmanın surətini əldə etmək üçün mərkəzdən, müxtəlif məkanlardan icazə almağa ehtiyac yoxdur. Xarici ölkə kitabxanalarından əldə edilmiş əlyazma surətləri tariximizi, mədəniyyət, elm və ədəbiyyat tariximizi yeni gözlə nəzərdən keçirməyə imkan verir. Bu işdə xarici ölkələrdə yaşayan həmvətənlərimizin (bunlardan Almaniyada yaşayan Məhəmmədəli Hüseyninin adını xüsusilə qeyd etmək olar), xarici səfirliklərimizin, habelə Heydər Əliyev Fondunun bizə yardımı böyük əhəmiyyətə malikdir.

**Ədəbiyyat / *References***


1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı". – Bakı, 2008.
2. AMEA Əlyazmalar İnstitutu. Biblioqrafiya (1950-2005)/ tərt. ed. A.Xəlilov. – Bakı: Nurlan, 2005.
3. AMEA Əlyazmalar İnstitutu. Biblioqrafiya (2006-2020)/ tərt. ed. C.Cəfərov. – Bakı: Elm və təhsil, 2021.
4. Cəfərov, C. Azərbaycan kitabxanalarında elektron kataloqların inkişaf perspektivləri. İnformasiya cəmiyyəti problemləri. 2011, №2(4).
5. Cəfərova, M. "Elektron kataloqun yaradılması metodları və vasitələri". "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və yeni əsrin çağırışları" mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 9-10 iyun 2020-ci il. – Bakı: BDU, 2020.
6. Əliyeva-Kəngərli, A. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar. Bakı: Elm, 2007.
7. Əski çap kitabları kataloqu [Türkdilli kitablar C. 1] / tərt. ed. M.Adilov. – Bakı: Nurlan, 2008.
8. İsmayılov, N. Dəyişən informasiya tələbatının kitabxanaların fəaliyyətinə təsiri. "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və yeni əsrin çağırışları" mövzusunda Respublika elmi konfransının materialları. – Bakı, 9-10 iyun 2020.
9. İsmayılov, X. Elektron sənədlər informasiya resursları sisteminin mühüm tərkib hissəsi kimi. "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və yeni əsrin çağırışları" mövzusunda Respublika elmi konfransının materialları. Elmi konfransın materialları. – Bakı, 9-10 iyun 2020-ci il. – Bakı: BDU, 2020.
10. Xarici ölkələrdəki Azərbaycan əlyazmalarının toplu kataloqu: [3cilddə]: Şərq əlyazma kataloqları əsasında / tərt. ed. A.Musayeva. – Bakı: Elm, 2012.
11. Manuscript.az


## Институт Рукописей имени Мухаммада Физули НАНА в цифровой среде: построение электронного каталога и электронной библиотеки

**Сакина Исмаилова**
Институт рукописей имени Мухаммада Физули НАНА. Азербайджан.

E-mail: s.asgerli06@gmail.com

**Резюме**. Роль электронных библиотек важна в передаче наших национальных и нравственных ценностей будущим поколениям и представлении их международному миру. В настоящее время одной из важных задач является построение электронного каталога в крупных библиотеках нашей страны на уровне современных стандартов. Поэтому электронный каталог имеет большое значение в автоматизации библиотек.
Электронный каталог литографий и старопечатных книг на турецком, арабском, персидском и западных языках хранится в фонде Института рукописей имени Мухаммада Физули НАНА. Он также включает каталог рукописных исследований. В настоящее время в институте создана электронная библиотека и каталог рукописей, научно анализируется редакционно-издательская деятельность института, библиометрически изучаются труды ученых.
**Ключевые слова:** Институт Рукописей НАНА имени Мухаммада Физули, цифровая среда, электронный каталог, электронная библиотека